**Z.Z.ARABOVA**
*baş müəllim*
*e-mail: zeynebarabov67@gmail.com*

**:https://orcid.org/0009-0007-5713-0462**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.2.231**

# DİL FAKÜLTƏLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ SƏRİŞTƏ ƏSASLI TƏLİM METODUNDAN İSTİFADƏ YOLLARI

***Xülasə.*** *Məqalədə səriştə əsaslı təlim metodunun ingilis dilinin tədrisində böyük rola malik olmasından bəhs edilir. Bu yanaşma təhsilalanların təlim nəticələrinə əsaslanır.*
*Burada əsas məsələ olaraq, dilöyrənənlərin öyrənmə prosesindən, təhsilverənlərin isə təhsilalanlardan gözləntiləri diqqət mərkəzində olur.*
*Bir sözlə, bu təlim növü öyrənmə prosesi üçün vacib hesab edilir.*
*Nəticə etibarilə, səriştə əsaslı təlim metodunda output və səriştə əsas məsələlərdir.*
*Onu da vurğulayaq ki, bu təlim metodu səriştə əsaslı təhsilin prinsiplərinin aplikasiyası kimi qəbul edilməkdədir. Burada əsasən dəqiqlik, cavabdehlik, mükəmməl idarəçilik, kəmiyyət meyarları əsas götürülür. Sözügedən tədris növündə təhsilalanların davranış məsələləri xüsusi əhəmiyyət kəsb edir.*

***Açar sözlər:*** *səriştə, motivasiya, dil, kontekst, metod*

Səriştə əsaslı təlim metodu planlaşdırma, proqramların yerinə yetirilməsi və təlim materiallarının çatdırılması baxımından ən geniş yayılmış yanaşma hesab edilir. Zaman içərisində daha geniş əhatə dairəsinə malik olub, bu sahədə müəyyən nailiyyətlər əldə etdi.

Əsas maraqlı olan detallardan biri də odur ki, bu yanaşmada dil tədrisi sahəsində spesifik kontekstlərə üstünlük verilir. Bu o deməkdir ki, bu zaman dilöyrənənlərin spesifik dil ehtiyacları nəzərə alınır. Belə olduqda onlarda motivasiya səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlir və eyni zamanda dərslərin səmərəlilik əmsalları nəzərəçarpacaq dərəcədə çoxalır.

Onu da qeyd edək ki, səriştə əsaslı dil tədrisində bir neçə əsas xüsusiyyətlər diqqət mərkəzindədir ki, onları təqdim edirik:

– Cəmiyyətdə uğurlu funksiyaya fokuslanma.

Bu zaman fərdlərin uğurlu və müstəqil olmaları, dəyişən dünyanın tələblərinə cavab verməsi kimi məsələlər ön planda olur.

– Həyati bacarıqlara fokuslanma

Burada həyati hadisələrə fokuslanarkən dili konkret tapşırıqlar əsasında öyrənmə mühüm əhəmiyyət kəsb etməkdədir. Belə ki, bu zaman səriştə əsaslı dil tədrisi kommunikativliyin həyata keçirilməsini dəstəkləyir. Bu zaman təhsilalanlar həyati təcrübələrinə söykənərək müəyyən fikirləri öz yoldaşları ilə paylaşırlar. Bununla da həm dilin istifadəsi fəal xarakter alır, həm də əməkdaşlıq əsaslı öyrənmə metodu işlək mexanizm nümayiş etdirir.

Beləliklə, dilöyrənənlər dili situasiyalar əsasında öyrənməyə başlayırlar. Bu funksiyalar dilin istifadəsinin qiymətləndirilməsi ilə müəyyənləşir. Situasiyalar daxilində şifahi nitqin inkişafı dəstəklənir, real həyati hadisələrə söykənən müxtəlif həcmə və məzmuna malik tapşırıqların situativlik fonunda yerinə yetirilməsi təhsilalanların marağına səbəb olur.

Bununla yanaşı, bütün bu qeyd edilənlər onların bilik və bacarıqlarının inkişafının müntəzəm olaraq, yoxlanılmasına və nəzarət edilməsinə əhəmiyyətli dərəcədə yardım edir.

– Tapşırıq və ya performans yönümlü oriyentasiya

Bu zaman isə bilikdən daha çox təqdimetmə davranışlarına fokuslanılır.

– Modullaşdırılmış icra

Bu cür yerinə yetirmə prosesində tədqiqatçılar qeyd edirlər ki, dilöyrənmə çevik və başa düşülən hissələrə bölünür. Məqsədlər isə alt məqsədlərə ayrılır.

Beləliklə, müəllim və tələbələr aydın şəkildə uğura nail olmanın üsullarını anlayırlar.

– Əldə edilən təlim nəticələri

Əsas qarşıda dayanan təlim nəticələri də burada vacib hesab edilməkdədir. Belə ki, təlim nəticələri həm də ictimai bilik sayılır. Biliyin əldə edilməsi isə dilöyrənənlər və müəllim tərəfindən razılaşdırılır. Belə olduqda, dilöyrənənlər onlardan hansı davranışların gözlənildiyini bilir və qarşıya davranışları özündə ehtiva edən məqsədlər qoyurlar.

– Davamlı qiymətləndirmə

Qiymətləndirmə zamanı təhsilalanlar əvvəlcədən test edilərək, çatışmazlıqlar müəyyən edilir. Mənimsəmədən sonra təhsilalanlar yenidən testə cəlb edilirlər. Əgər onlar istənilən nəticəni əldə edə bilməmişlərsə həmin problem yenidən gündəmə gətirilərək, test edilirlər. Burada proqramların qiymətləndirilməsi testin nəticələri ilə bilavasitə bağlı olur.

– İcra etmədə məqsədlərin nümayiş etdirilməsi

Bu zaman isə daha da müxtəlif olan qeyri-adi bacarıqlar diqqət mərkəzində saxlanılır. Hansı hissədə səriştə çatışmazlığı olarsa bütün diqqət həmin yerə yönəldilir. Bu zaman təlimatlar vaxt-əsaslı olmurlar [4,s.153]. Belə ki, təhsilalanları maraqlandıran mövzu və suallarla bağlı təhsilverənlər müxtəlif fəaliyyət növləri daxilində də müzakirələr, debatlar, sual-cavab sessiyaları, bir sözlə, müxtəlif kommunikativ fəaliyyətlər silsiləsi təşkil edərək, onların biliklərini təkmilləşdirə bilərlər, eyni zamanda bu aspektdə suallarını cavablandırar və dilöyrənənləri maraqlandıran digər məsələlərə də toxunmuş olarlar.

Beləliklə, həm biliyin genişləndirilməsi istiqamətində, həm də səmərəlilik baxımından xeyli fayda əldə edilmiş olar.

Onu da qeyd edək ki, adıgedən səriştə növündə iki xüsusiyyət diqqət mərkəzində olur:

– Dilöyrənənlər müəllimin gözlədiyindən nə qədər çox işlər yerinə yetirməlidirlər;

– Təhsilalanların göz önündə olan davranışları müşahidə edilir.

Nəhayət, belə qənaətə gəlmək olur ki, səriştə əsaslı təhsil müəllimyönümlülükdən tələbəyönümlülüyə keçidin təlim metodologiyasıdır.

Bu yanaşmaya görə, təhsilverənlər tələbələrlə onların ehtiyacları, potensialları, inkişaf sahələri üzrə işləyir. Burada əlbəttə, yaş amili də mühüm əhəmiyyət kəsb etməkdədir. Belə ki, bu fonda yaşa görə gözləntilər də fərqli olur.

Bu mənada təhsilverənlər adı gedən məsələdə də xüsusi diqqət nümayiş etdirməlidirlər.

Bu münasibətlə, tanınmış ingilis metodisti C.Harmer yazır ki, *yaş amili bizim təhsilalanları öyrətmə və onlara nə etməli olduqlarını bildirmə prosesində qərar verməyimiz kimi məsələlərdə ən vacib amillər sırasında hesab edilməkdədir.*

*Müxtəlif yaş dövründə olan insanların müxtəlif ehtiyac, səriştə və koqnitiv məsələlər baxımından bacarıqları vardır. Belə ki, biz kiçik məktəblidən xarici dili oyunlar vasitəsilə mənimsəməni gözlədiyimiz halda böyüklərdən əsasən dərin düşüncənin geniş istifadəsini gözləyə bilərik* [2, s. 80].

*Metodist F.Kərimov qeyd edir ki, maraqlı materialın təqdim etmə tərzi də mühüm şərtlərdən hesab edilir. Tədqiqatçı onu da əlavə edir ki, bu tədrisin mərhələsindən, təhsilalanların yaş dövründən əhəmiyyətli dərəcədə asılı amildir [1, s.43].*

Göründüyü kimi, xarici dillərin tədrisində təhlil etdiyimiz məsələlər müxtəlif metodistlərin diqqət mərkəzində olmuşdur.

Xüsusilə, bu sahədə aşağıdakılar nəzərdə saxlanılmışdır:

– materialların asandan çətinə mənimsədilməsi

– tənqidi təfəkkürün formalaşdırılması

– analitik biliyin təqdimatı
– dərin düşüncənin nümayişi və s.

Onu da vurğulayaq ki, bir çox təşkilat və müəssisələrdə əsasən üç növ kompetensiya tipini əsas götürürlər.

Onları təqdim edirik:
– əsas, mərkəzdə dayanan kompetensiya
– çarpaz funksional kompetensiya
– funksional səriştə

Əlbəttə, bunların hər birinin özlərinin müvafiq təhlil və tərkib elementləri, tətbiq sahələri mövcuddur. Bu da elmi, nəzəri, təcrübi, metodoloji cəhətdən kifayət qədər araşdırmalar tələb edən məsələlərdir.

Məsələyə bu aspektdən yanaşdıqda bu mövzuda və məsələyə müvafiq məzmunda elmi-metolololoji ədəbiyyatlarda kifayət qədər məlumatlara rast gəlmək mümkündür. Lakin bu gün də kompetensiyalarla bağlı müxtəlif baxışlar, fikirlər, yanaşmalar vardır.

*Maria Luiza Perez Canado səriştənin qiymətləndirilməsində, həyata keçirilməsində və inkişafında bu çətin, həyəcanverici prosesin hansı mərhələsində olunduğunu vurğulayır* [3, s.7].

O da vurğulanmalıdır ki, tədqiqatçılar səriştə əsaslı təhsilin zaman-zaman müxtəlif terminlərlə ifadə olunduğunu qeyd edirlər. Onlar çox vaxt adıgedən öyrənmədə öyrənmənin daimi, vaxtın dəyişkən olduğunu qeyd edirlər. Bu o deməkdir ki, təhsilalanların nümayiş etdirdikləri bilik və bacarıqlar, vaxt müxtəlifdir, lakin onlardan gözlənilən təlim nəticələrini özündə əks etdirən öyrənmə sabitdir, dəyişməzdir.

Hamıya məlumdur ki, uğurlu sinif interaksiyası tələbələrin iştiraklarından asılıdır. Belə ki, onların özlərini və digərlərini motivasiya etməyə ehtiyacları vardır. Məhz buna görə də onlar bunun üçün yollar axtarmalıdırlar. Qəbul etdikləri məlumatları öz şəxsi təcrübələrində tətbiq etməyi bacarmalı, sonda auditoriyalara inteqrasiya etməlidirlər.

Beləliklə, aşağıdakı terminlər səriştə əsaslı təhsilin adı olaraq, tanınmışdır:
– bacarıq əsaslı öyrənmə
– bilik əsaslı
– qabiliyyət əsaslı
– nəticə əsaslı
– performans əsaslı
– standart əsaslı təhsil

Qeyd edək ki, səriştə əsaslı təhsil çeviklik, tədrisdə canlılığa fokuslanır. Burada da bəzi məsələlər diqqət çəkir ki, onları təqdim edirik:
– məzmun üzrə bacarıqlar
– təlim nəticələri
– qiymətləndirmə
– çevik fidbək (geridönüş)
– statistikanın toplanması

Ümumilikdə, bu yanaşmada bir çox faydalar göz önündədir.

Onları təqdim edirik:
– dilöyrənənləri öz maraqlandığı sahələrdə işləməyə imkan yaratmaq;
– müəllimlərin məqsədlərini aydın şəkildə müəyyənləşdirməyi, tamamlamağı təmin etmək;
– təhsilverənlərə özlərinin öyrənmə xəritələrini formalaşdırmağa imkanlar təklif etmək;
– müəllimlərə rəngarəng metodlardan istifadə imkanları yaratmaq;
– öyrənmə mənbələrindən istənilən vaxt, istənilən yerdə istifadəni təmin etmək;
– texnologiyalardan ən yaxşı şəkildə istifadəni həyata keçirmək;
– səriştə nümayiş etidrməyə şərait yaratmaq;
– uğur və müvəffəqiyyətə gedən yolda bələdçilik etmək və s.

Bununla yanaşı, müəllim və dilöyrənənlər birlikdə öyrənmə strategiyaları hazırlayırlar ki, onlar aşağıdakılar hesab edilir:

– Layihə əsaslı öyrənmə

Bu zaman təhsilalanlar öz bilik və bacarıqlarını real dünya layihələrində tətbiq edirlər. Bunlar da fərdi və ya qrup şəklində həyata keçirilir ki, bu zaman onların maraq və qabiliyyətləri üzə çıxır.

– Problem əsaslı öyrənmə

Burada isə təhsilalanlar birlikdə həqiqi dünya hadisələri və situasiyaları üzərində qurulan problemləri həll etməyə çalışırlar. Bu da onlarda tənqidi düşüncə və problemi həlletmə bacarıqlarını formalaşdırır.

– Sorğu əsaslı öyrənmə

Bu zaman isə təhsilalanlar hər hansı mövzu və ya konsepti araşdırmalıdırlar. Belə halda onlar suallar soruşmaq, özləri bildikləri üsullarla mühakimələr yürütmək imkanına malik olurlar.

– əməkdaşlıq əsaslı öyrənmə

Dilöyrənənlər birlikdə işləyərək, tapşırığı və ya layihələri bitirməyə çalışırlar. Bu cür hallar təhsilalanlarda ünsiyyət və komanda işi ilə bağlı bacarıqlar formalaşdırır.

– Müstəqil, özünə yönəldilmiş öyrənmə

Bu halda isə onlara özlərinin öyrənmə prosesini yönəltməyə icazə verilir. Bu o deməkdir ki, onlar nəyi, harada, necə, nə zaman öyrənəcəklərinə özləri qərar verirlər. Bu da onlarda özünə inam hissinin, müstəqil düşünmə və qərarvermə qabiliyyətlərinin formalaşdırılmasında geniş imkanlar təklif edir. Belə ki, bu onların bilavasitə istəklərinə bağlı olaraq müəyyənləşdirilir.

Qeyd edək ki, bu növ səriştədə təhsilalanlar materialları mənimsəmə dərəcəsində müəyyən müvəffəqiyyətlər əldə etməzlərsə bu zaman təhsilin davam etdirilməsi ilə bağlı problemlərlə qarşılaşa bilərlər. Belə ki, təhsilalanlar təlim materiallarından hər hansı mərhələni mənimsəyə bilməyiblərsə bu da onların növbəti mərhələyə addımlamasında müəyyən əngəllərlə müşayiət olunur.

Əksinə, bütün təlim materialları üzrə bilik və bacarıqlara sahib olduqda onlarda irəliləmədə əminlik hissinin formalaşdırılmasına bilavasitə yardımçı olur.

Bundan əlavə, prosesin bu cür quruluşu təlim materiallarından ən yaxşı və səmərəli şəkildə istifadənin reallaşdırılmasını dəstəkləyir. Eyni zamanda bilik və bacarıqların mənimsədilməsi zamanı dilöyrənənlərə çeviklik nümayiş etdirməyə yardım edir.

Qeyd edək ki, kompetensiya ilə bağlı təsvirlərdə tələbələr tərəfindən sosial cəhətdən müəyyənləşdirilmiş biliyə dair strukturlar mövcuddur. Məhz bu baxımdan səriştə əsaslı təlim metodu təhsilalanların cəmiyyətdə effektiv şəkildə iştirakı üzərində qurulur. Çünki bu zaman uğurlu ünsiyyət, səmərəli tədris fəaliyyəti mövcud olur.

Yeri gəlmişkən, qeyd edək ki, tədris olunan materialların autentiklik keyfiyyəti də əsas diqqət mərkəzində olan məsələlərdən hesab edilməkdədir. Eyni zamanda planlaşdırma düzgün həyata keçirilməlidir.

Bununla yanaşı, hər bir səriştə tanıdılmalıdır. Hər bir səriştə relevant bacarıqlara bölünməlidir. Bu bacarıqları öyrənmək üçün imkanlar yaratmaqla modullar inkişaf etdirilməlidir. Müəllimlər müəyyən məsələləri, daha dəqiq desək, prosesi necə və nə zaman həyata keçirməyi dəqiqləşdirməlidirlər.

Səriştəni qiymətləndirmək üçün müəyyən rubriklər düşünülməli və dərs saatlarının əvvəlindən dilöyrənənlər üçün açıq olmalıdır.

Xüsusilə vurğulanmalı məsələlərdən biri də budur ki, kompetensiyaya qoyulan tələblərdən irəli gələn müxtəlif kommunikativ fəaliyyət növləri ətrafında düşünülməlidir.

Ən əsası isə budur ki, spesifik, birbaşa və fərdi geridönüşlər (feedback) edilməlidir.

Əlavə olaraq, vurğulayaq ki, səriştə əsaslı təlimdə təhsilalanların da rolları müəllimlər kimi dəyişikliyə məruz qalır. Belə ki, bu zaman tələbə yalnız informasiyanı qəbul edən, tapşırıqları yerinə yetirən və s. deyil, eyni zamanda inteqrasiya və emal edən, bilik və bacarıqlarını

genişləndirən olmalıdır. Onlar öz şəxsi öyrənmə prosesini reallaşdırmalıdır ki, bu da onların müstəqil olmaları üçün xüsusi əhəmiyyət daşımaqdadır.

Bununla yanaşı, təhsilalanlar tənqidi düşüncə tərzi nümayiş etdirməlidirlər. Gözləntilər və standartlar aydın və anlaşıqlı olduqda irəliyə doğru addımlayaraq, digər səriştə növlərinə də yiyələnmək mümkün olur.

Nəticə etibarilə, dilöyrənənlər səriştələrin təkmilləşdirilməsinə yönəldilmiş auditoriyalarda sual vermək, bir-birini motivasiya etmək, təşəbbüs göstərmək kimi keyfiyyətlər nümayiş etdirməlidirlər.

Qeyd edək ki, sözügedən səriştə növünün təkmilləşdirilməsinə yönəldilmiş auditoriyalarda fəaliyyətlər, materiallar və sillabuslar ənənəvi olanlardan fərqli olur. Belə ki, spesifik dil mətnlərindən ibarət prosesi özündə ehtiva edən fəaliyyətlərdən fərqli olaraq, burada daha çox inkişafyönümlü strategiya və taktikalar diqqət mərkəzində saxlanılır. Bu zaman hər dərs bacarıqların, səriştənin inkişaf etdirilməsinə yönəldilir ki, bu da vacib hesab edilir.

Bununla bərabər, düşünmə və təşkil – hər ikisi vacib məsələlərdir.

Ənənəvi öyrənmə üsullarında əksər hallarda bütöv dərs bir mövzunun mənimsədilməsinə həsr olunduğu halda səriştə əsaslı təlimi həyata keçirən auditoriyalarda bu məsələlər fərqli xarakter daşımaqdadır.

Buradan belə qənaətə gəlmək olur ki, tədqiqatçılara görə, hər hansı bir mövzu aşılanarkən (məsələn, past tense) bu dərsin inteqral bir hissəsi olaraq, öyrədilməlidir.

Bununla yanaşı, relevant lüğət, tələffüz və s. məsələlərlə bərabər reallaşdırılmalıdır. Sinif materialları bilmədən ("knowing") daha çox, tətbiq etməyə ("doing") oriyentasiya edilməlidir.

Tutaq ki, səriştə "giving personal infiormation" adalanır. Bu zaman dilöyrənənlər buna dair tətbiqlər gerçəkləşdirməlidirlər.

Bunlar aşağıdakı adlarla xarakterizə edilə bilər:

– ailə ağacı (family tree) tərtib etmək;

– keçmiş haqqında yaddaqalan xatirələr danışmaq (talking about favorite pasttimes) ;

– həftəsonu yerinə yetirilən işlərin təsviri (describing what they did over the weekend) ;

Sözügedən tədris metodunda ənənəvi üsullarla həyata keçirilən az miqdarda tapşırıqlar olmalıdır. Məsələn,

– boş yerləri doldurun;

– düzgün cavabı dairəyə alın;

– spesifik qrammatik tapşırıqların yerinə yetirilməsi və s.

Bu zaman elə tapşırıqlar seçilməlidir ki, onlar real həyati situasiyalarla bilavasitə uyğunluq təşkil etmiş olsun. Belə olduqda tələbələr asanlıqla bilik və bacarıqları tətbiq etmə sahəsində mühüm və müsbət addımlar ata bilirlər. Eyni zamanda uğura nail olurlar. Bu da növbəti mərhələlərdə onlarda özünəinam hissinin formalaşdırılmasında əhəmiyyətli dərəcədə fərqlərlə müşayiət olunur. Belə olduqda tələbələr nəzərdə tutulmuş kompetensiyanın bir neçə və ya bütün komponentlərindən istifadə mexanizmini bilməli və onu tətbiq etmək üçün müəyyən cəhdlər etməlidirlər.

Yeri gəlmişkən, onu da vurğulamaq lazımdır ki, eyni zamanda sillabuslara icra (performance) fəaliyyətləri də daxil edilməlidir ki, onlar bacarıqlar əldə etsinlər.

Beləliklə, metodoloji ədəbiyyatlarda səriştə əsaslı təhsil aşağıdakılar üzərində qurulur:

– təlimat

– qiymətləndirmə

– fidbək

– özünü ifadə etmə

– akademik mövzu sistemi

Bunlar yuxarıda da ifadə etdiyimizin təsdiqi olaraq, tələbələrin təqdimatları üzərində qurulur ki, burada da aşağıdakılar diqqət mərkəzində saxlanılır:

– bilik

– münasibətlər
– motivasiya
– bacarıq və s.

Burada təhsilalanların bu keyfiyyətləri haqqında məlumatlar əldə etmək mümkün olur.

***İşin elmi nəticəsi.*** Səriştə əsaslı dil tədrisinin istifadəsi fonunda təhsilverənlər və onların təklif etdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətləri və seçimi, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən çox səmərəlilik nümayiş etdirən yollardan biri dilöyrənənləri düzgün şəkildə istiqamətləndirmək, ingilis dilində danışanları məqsədyönlü şəkildə dinləmək və mənalı, motivasiyaedici söhbətlərə sövq etməkdir. Əgər tələbələr nə qədər çox söz dinləyib-anlayarsa bir o qədər də səriştəlilik tez formalaşar.

***İşin elmi yeniliyi.*** Sözügedən məqalədə indiyə qədər araşdırılan məsələlər təhlil edilir, elmi müddəalar tutuşdurulur, əldə edilən nəticələr xülasə şəklində təqdim edilir.

***İşin tətbiqi əhəmiyyəti.*** Araşdırılan mövzu ali məktəblərdə ingilis dilinin tədrisində səriştə əsaslı təlim metodunun istifadəsi və təkmilləşdirilməsi baxımından faydalı ola bilər.

## Ədəbiyyat

*Azərbaycan dilində*

1. Kərimov, F. Şifahi nitqin inkişafı yolları / F.Kərimov, – Bakı: BSU nəşr., – 2002, – 139 s.

*İngilis dilində*

2. Harmer, J. The Practice of English Language Teaching (5th edition) / J.Harmer, – Pearson Education Limited, – 2015, – 446 p.
3. Maria Luiza Perez Canado. Competency- Based Language Teaching in Higher Education. – Springer Science + Business Media Dordrecht, – 2013, – p.7-12
4. Richards, J. Rodgers. Approaches and methods in Language Teaching (3rd edition) / J.Richards, S.Theodore. – Cambridge University Press, – 2014, – 409 p.

**Z.Z.Arabova**

**The Ways of Using Competency Based Language Teaching at Language Faculties in ELT**

***Summary***

The article considers that Competency Based Language Teaching plays great role in Foreign Language Teaching. This approach is based on the outcomes of the learners. The main point here are the expectations of the learners from the learning processing and teachers expectations from the students.

Generally, this approach considers output very important at learning process. So, output and competency are the main points for CBLT. We should emphasize that this teaching method is accepted as the principles of application of Competency Based Education. Accountability, management quantification are the main questions in CBLT.

In this method, the behavioral questions of the students have great importance.

***Key words:*** *competence, motivation, language, context, method*

**З.З.Арабова**

**Способы использования метода обучения основанный на компетентности при преподавании английского языка на языковых факультетах**

***Резюме***

В статье отмечается что, метод формирования навыков играет большую роль в обучении английскому языку. Этот подход основан на результатах обучения учащихся. Здесь в качестве основного вопроса находятся ожидания учащихся от процесса обучения и ожидания преподавателей от учащихся.

Короче говоря, этот тип компетенции считает результат более важным, чем процесс обучения.

Следовательно, результативность и компетентность являются ключевыми вопросами в методе обучения, основанном на компетенциях. Подчеркнем также, что данный метод обучения рассматривается как применение принципов воспитания. Здесь в основном рассматриваются точность, ответственность, управление и количественные критерии. Особое значении приобретают поведенческие вопросы учащихся в указанном виде обучения.

***Ключевые слова:*** *компетенция, мотивация, язык, контекст, метод*

*Rəyçi: ped.f.d., dos. əvəzi J.Mehrəliyeva*

*Redaksiyaya daxil olub: 11.03.2025*